## *Sözə gəlişin uğurlu addımları*

# ATASINI İTİRMİŞ QIZIN HEKAYƏSİ

**Ayrıldıq...**

Elə bil şəhərin tək sakiniyəm,
Bu qədər qohumun, yadın içində.
Bircə həsrətinin dadın seçərəm,
Min cürə qarışıq dadın içində.

Ayrılıqdan qaçıb yollara düşdüm,
Neçə çöl bitirdim, neçə dağ aşdım.
Dumandan gedirdim, çənə qayıtdım
Səndən təmizlənib, sənə bulaşdım.

Qulaqda qəlbimin döyüntüsü var
Dedim ki sənsizəm, demədin ki gəl.
Bütün əngəlləri keçib gəlmişəm
İndi aramızda sənsən tək əngəl.

Yorğunluq işləyib iliklərimə
İllər yordu məni, yollar neyləsin
Qürurun qandaldı biləklərinə
Beləcə ayrıldıq, qollar neyləsin...

**Bəlkə də...**

Bəlkə də hardasa biri doğuldu
Yaratdı yenə də böyük yaradan
Ona yer verməkçün atamı aldı
Seçərək apardı ağı qaradan

Bəlkə də hardasa biri doğuldu
Sən verdiyin an son nəfəsini
Onun anasının gözləri doldu
Mən boğa bilmədim nalə səsini

Bəlkə də hardasa günəş də çıxdı
Bizim ömrümüzə dolu yağanda
Çinar gövdəsinə fərəhlə baxdı
Sənsiz baharımız xəzan olanda

Bəlkə də hardasa tərpəndi qatar
Yurduna apardı qərib olanı
Sənin üz tutduğun tikanlı yollar
Geri qaytararmı məndən alanı?

Bəlkə də bu bahar özü də bilir
Onun bənövşəsin, sevəni getdi
Torpaq da, hava da, su da hiss edir
Dünyanın dünyaya güvəni itdi

Bəlkə də ulduzlar bilir dərdimi
Daha əvvəlkitək parıldamırlar
Görünür xatirən para ay kimi
Onun da üzünü tutur buludlar

Bəlkə də bir ümid dirildi o dəm
Mənim ümidimin itdiyi anda
Yeni həyat yolu, yeni həyəcan
Mənim həyat eşqim bitdiyi anda

Bəlkə də ta səndən gəlməz həyata
Sən ki çox sevirdin haqqın səsini
Sən bütün dünyanı sevirdin, ata
İnsanlar sevməzkən öz kölgəsini.

**Bilirsənmi**

Ağacların qışdan çox
qəbrəstanlıqdan qorxduğunu?
Kökləri kökümüzə dayanan,
Göz yaşıyla boy atan
Ağaclar saralmır...

Bilirsənmi,
Daha təsirli olur,
qaranlıq otaqlardakı sarılmalardan,
Dayanacaqlardakı sarılmalar?
- "Məni unutma" deyir
Əllərdəki ağ yaylıqlar
Gedənlər unudur...

Bilirsənmi,
Quşlara isti ölkələrdə də
"köçəri quşlar " deyildiyini?
Allah, yem daşımaq üçün
yaradıb quşların dimdiyini
İndi əllər yox, əlillər işləyir...

Bilirsənmi,
Şairlərin yazdıqlarıyla, yaşadıqları uzaq olur?
Onlar yaralarını göstərmir kiməsə
Şerlərdə xoşbəxtliklə bədbəxtlik
yan - yana yazılır
Qafiyə uysun deyə
Və əslində
Həyat, bu iki sözdən ibarətdir!

Bir gün biləcəksən -
Əsil olan o üzüntünü yaşadığında!

Üzüntülərinə görə axıtdığın
göz yaşlarından üzr istəyərsən...
Hiss edərsən iliklərində...
Zaman, iki yara izi xatirə buraxar biləklərində...
Evsiz insanlar da bir gün torpaq sahibi olacaq!

**Bu şəhəri unutma, Allah**

Burda binaların üstü qırmızı
Utanan qızların yanağı kimi.
Bu şəhərdə pəncərələr danışmır
Dilənən qadının uşağı kimi.

Elə ki yağışlar yağır şəhərə,
Damlar boya sürtür dodaqlarına.
İslanmasın deyə çölə çıxmayan,
Düzür ləyənləri otaqlarına.

Şəhərdə qohumlar yada qarışıb,
Saatın dalınca qaçır adamlar.
Yuxu əsir alıb yorğun şəhəri,
Burda ayaq üstə yatır adamlar.

Bu şəhəri dəniz basıb bağrına,
Bəlkə də ondandır, yuxlayır, yatır.
Günləri ötürsün, ay bitsin deyə,
Hərə bir tərəfdə başını qatır.

Ey gənclər şəhəri, silkələn, oyan,
Daha bu gün keçdi, dəyişər sabah.
Sənin dilindədir, bir kəlmə "Ol!" de,
Unutma bu şəhəri unutma, Allah!



**Çətin deyil xoşbəxt olmaq...**

Bütün pərdələri bağladıq
Qaranlığımıza sığındıq
Çəkildik hücrələrimizə
Unutduq gördüklərimizi
Unutduq
Özümüzü ovutduq
Bu gündə bacardıq çətin olanı
Gülümsədik,
Kimsə anlamadı bu ağ yalanı
Anlamadıq bizdə kimsəni
Bu gün də dünənin eynisi
Dünən bu gündən cavan
Sabahın eynəklisi
Bu qaç qovun adı yaşamaq
Çətin də deyil, inan heç deyil...
Xoşbəxtliyə bir yerlərdən başlamaq
Ümidlərimiz quşların qanadlarında
Quşlarsa dənizin taa o tayında...

**Bəs eləmir anlamağa, anlatmaq...**

Çıxıb getsəm indi...
Ayaqyalın keçsəm arpa zəmilərindən,
Qızmar günəşin altında
Görsəm, necə olur başqa cür yanmaq...

Çıxıb getsəm indi...
Sonuncu izlərimi ləpələr udsa,
Boğulsam mavi sularında dənizin
Görsəm, necə olur başqa cür boğulmaq...

Çıxıb getsəm indi...
Bilmədiyim yollarla bilmədiyim şəhərə,
Ruhum köçsə yad bir bədənə
Görsəm, necə olur başqa cür doğulmaq...

Sevgidən yazılan bütün kitabları,
Əfsanələri,
Yaşamaq lazımdır, yaşamaq...
Bəs eləmir anlamağa anlatmaq..

**Çörəyi dizinin üstə...**

Həmişə belə olmaz ki
- guya belə ağıllı,
belə yaxşı, sanballı.

Dəli olasan, dəli...
Yanına yel verələr,
əlinə bel verələr.
O ən yaxın dostların quyusunu qazasan.
Dərdini çəkə dünya, sən yolunu azasan.

Nifrət əkəsən, nifrət...
Babanın sümükləri qarışan ac torpağa.
Səpəsən şübhəni şübhəli ürəklərə,
sancılasan ox kimi.
İtirəsən inamı,
Güvən ola yox kimi.
Bulana duru sular,
Palçıqlı sularda görünməyir qüsurlar...

Həyasız olasan, həyasız...
Üzünə güldüyünün
Dalınca danışasan.
Sonra gözünə baxıb,
Güləsən arsız-arsız.

Namərd olasan, namərd...
Bir yelləncək qurasan,
Dostun dar ağacından.
Yelləncəkdə ağ bayraq
Yellənə düşməninə.
Quyruğunu yelləyən yaltaq tula misalı,
tuta əlindən, o babanın qatli,
Əlləri qanlı.
Qalxanda tökülə,
Dizinin üstdən çörək qırıntıları...

Xəstə olasan, xəstə...
Can üstə,
yorğan-döşək.
Axırına çıxacaq bu andır göy öskürək.
Gözün qala qapıda,
Döyülməyə qapı da,
Cin hürkə xarabanda.
Başında bit qədərdi
Ac siçovulların sayı.
Gülüşdən bixəbərdi
Bu viranə qalmış ev.
Orda gülən olmayıb,
Taxma dişdən savayı...
Girə pəncərələrdən,
Dəvətsiz hirsli külək,
Salıb sındıra divardakı şəklini,
Toz basmış keçmiş səni...
Söyəsən küləyi də,
Xırıltılı səsinlə.
Bu kimsəsiz divarlar qızınmır nəfəsinlə.
O qədər söz çıxıb ki indiyədək ağzından,
Yalanın iyi gəlir
Dilindən, dodağından...
Ölü olasan, ölü...
Vallah!
Bu ölsün!

Sən öləsən!
Salamatı ölməkdi...
Can verəsən...
Öləsən...

**Mən sən boyda yoxluğu axı harda gizlədim?...**

Bu qışın sayyəsində
Mən, daha yaxşı bilirəm qışın nə olduğunu
Bu günün istisində,
Bəlkədə ondandır əritmir günəş
Qışın dondurduğunu..
Mən sən boyda yoxluğu axı harda gizlədim
Gəl öyüd ver ay Ata
Axı necə güvənim bu varlığın,
Yox olduğu həyata..
Mən sən boyda boşluğu axı harda gizlədim..

Kitabların deyirəm...
Kimsəsiz rəflərdən boylanan kitabların,
Yetim körpələr kimi
Əllərini axtarır ağlayan kitabların..
Hər cümləsini əzbər bildiyin o səhifələrdə,
Heç bəhs edilmişdimi ölümdən?
Sətirlərdə..
Bəhs etdimi ayrılıqdan?
Ağır qara daş kimi
Bir qərib ölkədəki,
Qışa düşmüş quş kimi..

Günəşli bir bahar səhərində
İşıqlı sabahların birində
Bir hekayyə oxumusan
Atasını itirmiş qız haqqında hekayə...
Ürəyin yanıb ona..
İlk ağlına bacım gəlib,
Sonra mən..
Ölən ata yerində
Özünü fikirləşmisən..

Bəlkədə gözümün içinə baxıb
ürəyində demisən
"ölərmi sənin atan?"..
Sonra demisən bəlkə:
" Nəhlət sənə kor şeytan" ...

**Naməlum şəhərdə...**

Gör ha,
Neçə qış ötüb,
O baharın üstündən
Neçə durna qatarı
Qayıdıb səfərindən.
Mənim yerim bəllidi
Gedib dönürəm geri
Dönüb qayıtdığım yer
Sənsizlik ölkəsidi,
Qəriblik döngəsidi.
Burda hava soyuqdu
Burda sənsizdir həyat
Burda Şəhər kimsəsiz
Burda insanlar səssiz
Getdiyin yollar kimi
Fikirlərim dolaşıq
Hərdən məktub yazırsan
Həsrətimə bir işıq...
Əyilmiş hərflərə
Yüklənib bəhanələr
Cümlələri titrəyir,
Kəlimələriysə ürkək
Üşüyür mən tək..
Yazırsan ki;
"Yad eldə,
Yad baxışdan uzaq ol,
Bəlkə görüşmədik heç
Ömür qısa, uzaq yol.
Qışda bitmədi bəlkə
Sən üşümə əzizim
Qalın elə əynini
Geyin əlcəklərini"...
Axı hardan biləsən
Naməlum bir şəhərin
Soyuq təqvimi deyil
Sənin soyuq eşqindir
Burda üşüdən məni...

*Əsmər HÜSEYNXAN*